


Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto: Dəniz Sadıxova

web: www.clb.az
facebook: fb.com/childlibazerbaijan
twitter.com/childlibaze
instagram: childlibazerbaijan
youtube: childlibazerbaijan

F. Köçərli adına Respublika Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 02 (82) / 2024



# Beynəlxalq Uşaq Kitabı Günü





















Salam, dostlar, mən İncəhörüm yenə də görüşünüzdəyəm. Bildiyiniz kimi, aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günüdür. Bu gün biz kitabsevərlər üçün əsl bayramdır, elə deyilmi?

Uşaq ədəbiyyatı gününün məhz bu tarixə təsadüf etməsinin maraqlı bir tarixçəsi var. Məşhur nağılçı Hans Xristian Andersen 1805-ci il aprelin 2-də anadan olub. Beynəlxalq Uşaq Kitabı Gününün bu tarixdə qeyd olunmasını alman yazıçısı Yella Lepman təklif edib. Bu əlamətdar günün qeyd olunmasında məqsəd cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə cəlb etməkdir. Həmin günü kitabxanada bu əlamətdar günə həsr olunmuş uşaq kitab sərgisi təşkil edildi. Məktəbli dostlarım həm kitabxanamızın yeni kitabları, həm də mənimlə tanış olmaq üçün gəlmişdilər. Bu məni çox sevindirdi. Sərginin açılışında hamımızın sevimlisinə çevrilən uşaq yazarları da iştirak etdi. Məktəbli dostların sevincini düşünə bilirsinizmi? Onlar körpəlikdən nağıllarını dinləyə-dinləyə böyüdükləri, oxuya-oxuya xəyal dünyalarını inkişaf etdirdikləri əsərlərin yazarları ilə görüşə gəliblər. Bənzəmək istədikləri nağıl qəhrəmanlarının yaranma tarixini və səbəbini bilmək məktəbliləri çox sevindirdi. Sevdikləri nağılları müəlliflərin dilindən eşitmək məktəblilərin unudulmaz xatirəsinə çevrildi.

Sərgidə kiçik yaşlı uşaqlar üçün, eyni zamanda oxucuların yaş səviyyəsinə uyğun nəzərdə tutulan nağıl, hekayə, təmsil və s. kitablar nümayiş olundu. Oxucular sərgi zamanı son illərdə nəşr olunan 481 adda Azərbaycan və dünya uşaq ədəbiyyatının nümunələri ilə tanış oldular. Bəli, düz eşitdiniz. 481 adda kitab. Bilirəm ki, bu sizi çox həvəsləndirdi və o kitabları səbirsizliklə oxumaq istəyirsiniz. Elə isə hamınızı kitabxanamıza dəvət edirəm.

***"Axı, kitab təfəkkürün yorulmayan qanadlarıdır". (C.Svift)***





# MUZEY KOMPLEKSİ-ANDERSENİN EVİ

Əziz oxucular, İncəhörümün ölkə-ölkə gəzib dolaşmağı çox sevdiyindən artıq xəbərdarsınız. O, bunu ən çox da siz sevimli dostları üçün edir. İstəyir ki, siz də dünyanın ən qeyri-adi gözəlliklərindən xəbərdar olasınız. Elə isə gəlin birlikdə Hans Kristian Andersen muzey dünyasına birlikdə səyahət edək.

Danimarkanın füsunkar paytaxtı inanılmaz təəssürat yaradır, buna görə də nağılların ən sevimli və hörmətli ixtiraçısı Hans Kristian Andersenin burada işləməsi heç də təəccüblü deyil.

Yeni Hans Kristian Andersen Muzeyi Odense şəhərində yerləşir . Bura bağları və yeraltı sərgi salonları ilə əsl nağıl dünyası kimi dizayn edilmişdir. Muzeyin binası Kenqo Kumanın bürosu tərəfindən layihələndirilib və yazıçının yaşadığı evlə eyni yerdə yerləşir.

Bu muzey tozlu stendləri olan darıxdırıcı bir sərgi deyil, əksinə, bura uşaqlığınınıza qayıtmaq, ən qeyri-adi arzularınızı xatırlamaq, sevimli nağıl personajlarınızla üz-üzə gəlmək imkanıdır.

Sərgi böyük danimarkalı hekayəçinin həyatındakı dövrə həsr olunmuş qalereya ilə başlayır. İstedadlı yazıçının mum fiquru palıd masasında əyləşərək sevimli Kopenhagenin yaşadığı pəncərələrə baxırdı. Yeri gəlmişkən, muzey üçün bu ev təsadüfi seçilməyib - müəllif həqiqətən buranı çox sevirdi. O burada yaşayır və burada da işləyirdi.

Hans Kristian qəhrəmanlarının üçölçülü fiqurları bir düyməni basmaqla gündəlik həyatı nağıllar aləminə çevirir. Hər hansı dil və kitab seçərək, bütün gün ərzində özünüzü sevimli nağılınızın içində tapa bilərsiniz. Muzeyin qarşılıqlı komponenti olduqca real və əlverişli düşünülmüşdür.

Muzeyin bütün sərgi salonları zirzəmidə yerləşir. Ən gözəl təşəbbüslərdən biri də odur ki, muzeyin dizaynı Andersenin yeraltı xəzinəsini gizlədən ağacın hekayətindən bəhs edən







"Flint" nağılına əsaslanır və muzeyin interyerində çoxlu təbii ağacdan istifadə olunub.

Dünyanın hər yerindən 12 rəssamla birgə hazırlanmış macəra otaqlarını kəşf edin.

***Aqil insan olmağın yolu kitablardan keçir.***

> ***"Memarlıq dizaynı ideyası Andersenin metoduna bənzəyir, burada kiçik bir dünya birdən-birə daha böyük bir kainata çevrilir".***
>
> **Kenqo Kuma**





**"Biz Andersenin sağlığında istifadə etdiyi əşyaları toplayan bir muzey yaratmağa çalışmadıq. Biz onları müxtəlif sosial reallıqlardan fərqli şəkildə topladıq. Muzeyin və kolleksiyaların yaradılmasında əsas məqsəd tamaşaçılara dünyanı fərqli yöndən görmək şansı verməkdir".**

**HENRİK LUBKER**
**H.C.Andersen House-un yaradıcı direktoru**





# Lampa abidələr

**Zahirə Cabir**

Hər il yay tətilində ailəlikcə Xaçmaz rayonuna istirahətə gedirik. Səhərlər “Çənlibel” parkını gəzir, oranı seyr etməkdən doymuruq. Altı hektar ərazisi olan bu gözəl istirahət mərkəzi 15 iyunda, yəni Azərbaycanın Qurtuluş Günü ərəfəsində istifadəyə verilmişdi. Parkda  süni çaylar, onların üzərində 20-yə yaxın körpü inşa olunub. Bundan əlavə, parkda Azərbaycanın xalq qəhrəmanı Koroğlunun abidəsi qoyulub. İlin bütün fəsillərində insanların istirahətləri üçün maraqlı məkan olan parkda qızmar yay günləri axşamçağı xüsusilə qələbəlik olur. Parkda olduğumuz müddətdə yaşlılar ağacların kölgəsində oturub istirahət edir, mən isə uşaqlarla birlikdə oynayırdım. Burada heykəllər və müxtəlif heyvan fiqurları biz uşaqların əyləncəsinə daha da rəng qatır, çox yüksək  hündürlükdən axan şəlalə isə istirahət mərkəzini daha da gözəlləşdirirdi. Parkda Koroğlu dastanının müxtəlif qəhrəmanlarının təsvir olunduğu mozaikalara da rast gəlmək olar. İstirahət mərkəzində qeyri-adi üslubda quraşdırılan su kranı Şollar su kəmərinin rəmzidir. Nəvələri ilə birgə istirahət edən nənə anamla söhbət edəndə bildirdi ki, park daha çox uşaqların istirahətinə yarayır: “Uşaqlar buradakı oyun meydançalarında istirahət etməyi çox sevirlər.” Mənim diqqətimi çəkən isə İstirahət Parkının girəcəyində hündürlüyü təxminən 10-12 metrə çatan lampa-abidər oldu. Yaxınlaşıb orada çalışan fəhlələrdədən soruşdum ki,  bu lampa-abidələr nəyin rəmzidir?

Nur üzlü, çal saçlı bir kişi söylədi ki, Ulu Öndər 1990-cı illərin əvvəllərində Azərbaycanın, o cümlədən Naxçıvanın ağır günlərində lampa işığında işləyərək Azərbaycanı işıqlı gələcəyə qovuşdurmuşdur. İndi doğma Azərbaycanımızın bütün guşələri kimi Xaçmaz rayonu da həmin nura qərq olub. Bu lampa-abidələr də məhz o nurun rəmzi olaraq ucaldılıb.

Mən gözümü Lampa abidələrdən çəkmədən düşündüm: 15 iyun tarixini əbəs yerə Milli Qurtuluş Günü, nicat günü, işıqlı gələcəyinin başlanğıc günü kimi bayram etmirik. Biz əsl həqiqətdə  bugünkü firavan həyat, işıqlı, nurlu günlərimiz üçün ulu öndər Heydər Əliyevə borcluyuq.



# Novruzgülü-Boyçiçək

Narmis bütün gecəni həyətə boylanıb Qarğanın yolunu gözlədi. Lakin Qarğa geri qayıtmadı. Səhər açılan kimi o, atası ilə birlikdə Qarğanı axtarmaq üçün bağa çıxdı.

-Bəlkə, yenə kimsə onu yaralayıb? O, heç vaxt məni atmazdı, -Narmis atasına gileyləndi.

- Quşlar belə olur. Ola bilsin ki, özününkülərə rast gəlib və onlarla uçub gedib. Sən fikir eləmə, gec-tez qayıdacaq, - atası Narmisə təsəlli verirdi.

Bayram hazırlıqları gedirdi. Narmis ev işlərində anasına kömək edirdi. O, xalça toxumağı, paltara naxış vurmağı, xəmir yoğurmağı, ən əsası da şəkərbura büküb üstünü bəzəməyi öyrənmişdi. Vaxt keçirdi, Qarğadan isə hələ də səs-soraq yox idi.

-O necə mənim dostluğuma xilaf çıxıb vidalaşmadan gedə bilər?!-

Narmis göz yaşları içində Əliyə şikayətləndi.

-Narmis, dostluqda itlər daha vəfalı olur. Düşünmürəm ki, Qarğaya nəsə olub. Sadəcə, uçub-gedib. Narahat olma, o, mütləq geri qayıdacaq, -Əli Narmisi sakitləşdirməyə çalışdı.

-Sən bilmirsən, Əli! Biz onunla hər zaman söhbət edir və bir-birimizi yaxşı başa düşürdük. O, adi quş deyildi. O mənim üçün müəllim, ağıllı və müdrik bir dost idi.

Boyçiçək Günü gəlib çatdı. Novruz bayramında yarpız yığılır, novruzgülü, zanbaq, bənövşədən çələnglər düzəldilirdi. Qızlar saçlarına güllər taxırdılar. Amma evə nərgizgülü gətirmək qadağan idi. Uşaqlar meşəyə novruzgülü və bənövşə yığmağa gedir, axşamüstü isə əllərində gül-çiçəklə kəndi gəzməyə çıxırdılar.

-Narmis, gəl, meşəyə novruzgülü dərməyə gedək, - Əli dedi.

-Əli, Narmis hələ balacadır, ona meşəyə getmək olmaz, -Nargül təlaşlandı.

- Nargül xala, onda mən çiçəklərdən dərib Narmisa gətirərəm.

-Anacan, mən artıq balaca deyiləm. Nə olar, icazə ver, mən də uşaqlarla gedim. Bəlkə meşədə Qarğanı tapa bildim.

-Yox, Narmis, meşəyə getmək sənin üçün hələ tezdir, - Nargül fikrindən dönmədi.

-Onda, olar mən meşədən gələndən sonra papaq atmağa gedək?

Ancaq yaxınlıqdakı qonşulara və bizim qapımıza atarıq, - Əli xahiş etdi.

Hə, kəndin içində olar, - Narmisin anası axır ki, razılıq verdi.

Narmis sevincək anasını qucaqladı. İlk dəfə idi ki, ona uşaqlarla birlikdə kənddə bayram gəzintisində iştirak etməyə icazə verilirdi.

Əli uşaqlarla gül dərmək üçün meşəyə gedəndə Narmis ona dedi:

-Əli, diqqətli ol, ağaclara da göz yetir, bəlkə Qarğanı tapdın.

Bir müddət sonra Əli qucaq dolusu novruzgülü və bənövşəylə geri qayıtdı. Güllərin ətri adamı məst edirdi.

-Narmis, gəl, gülləri papaqlara yığaq, - Əli dedi.

Beləcə, onlar çiçəkləri papaqların içinə yığıb "papaqatdı"ya çıxdılar.

Narmis qızılı saplarla işlənmiş nar rəngli don, üstündən də tirmə və məxmərdən tikilmiş eşmək geyinmişdi. O, çox xoşbəxt idi. Ətrafda

Tonqallar yanır, uşaqlar papaqlarındakı şirniyyatları bir-birilərinə göstərib gülürdülər. Kiminin payına boyanmış yumurta, kiminin isə naxışlı şəkərbura düşmüşdü. Hər ikisi olan qalib gəlirdi. Qalibə çiçəklər verilir, ətrafında yallı gedirdilər.

-Bilirsən, mən xurcuna anamın toxuduğu "Narlı" xalçasını qoymuşam,

-Əli dedi.

-Əli, gəl, Pəri bibimgilə gedək. O, artıq gəlmiş olar. Atam demişdi ki,

bibim bizə bayrampayı gətirəcək. Onun boyadığı yumurtalardan kənddə heç kimdə olmur. Bəlkə qalib biz olduq?! Xalçaya da bibimgildə baxaram.

-Əgər biz qalib gəlsək, anam çox sevinər. Mən də uşaqlarla birlikdə yallı gedib mahnı oxuyaram. Uzağa getdiyimizlə bağlı evdə bir kəlmə də danışma, yoxsa Nargül xala məni danlayar.

Beləliklə, uşaqlar Pəri bibinin evinə üz tutdular.

**Solmaz Amanova**





Dünyaya bir nağıl gətir

V.Hüseyn Kaya

# Biblio Fil

## kitabqurdu bir filin hekayəsi

Bala fil anası ilə bazarda alış-veriş edirdi. Birdən eynək və şərf taxmış yaşlı fil onların yanından keçdi. Bala fil yaşlı filin yaxasında parıldayan bir nişan gördü. O, gözünü heç cür nişandan çəkə bilmirdi. Nişan elə xoşuna gəlmişdi ki...



Az sonra anası bala filin yanında olmadığını anladı. Ana çox həyəcanlandı. Bir az arxada bala filin başqa yaşlı filə baxdığını gördü.

Qaçaraq yanına gəldi, bala filin əlindən tutdu:

- Xahiş edirəm, çöldə olarkən mənim yanımdan uzaqlaşma, oğlum, - dedi.



- Sən itsən, çox kədərlənərəm.

Ana fil çox qorxmuşdu. Bala fil anasından üzr istədi.

- Ana, o yaşlı filin yaxasında çox parıldayan bir şey var idi. Üzərində də BİBLİO FİL yazılmışdı.

O nədir? – dedi.

Anası gülümsəyərək bala filin başını sığalladı.

- Çox kitab oxuyan fillərə BİBLİO FİL deyilir. Yaxalarına da qızıl kimi parıldayan bir nişan taxılır.

Yaxasında bu nişan olan fillərə hamı çox hörmət edir.

Bala fil həyəcanlandı.

- Ana, mən də bir gün BİBLİO FİL ola bilərəm?



- Əlbəttə, - anası dedi.

- Çox kitab oxusan, sən də bir gün BİBLİO FİL ola bilərsən.

Evə qayıdan bala fil dərhal otağına qaçdı.

Kitabxanasını eşələdi, oxunmamış kitabları masasının üstünə yığdı.

Oxumağı gözləyən nə qədər çox kitabı var imiş! Əlindəkiləri oxumadan atasına yeni kitablar aldırıbmış.



Ertəsi gün məktəb olmadığından, səhər tezdən durmaq lazım deyildi.

Bala fil səhərə qədər kitab oxudu. Vaxt gedir bala fil oxuyur, oxuyur, oxuyurdu. Səhər bala fil ouxuduğu kitblardan ana və atasına uzuz - uzadı danışdı. Qorxaq ördək balası, hiyləgər tülkü, ağıllı qarğa, inadkar keçi...



Hamısının əhvalatını bir-bir danışır, danışdıqca da çooox sevinirdi.

Səhər yeməyindən sonra atası işə getmək üçün evdən çıxdı. Bala fil atasının boynunu qucaqladı və axşam gələndə ona yeni kitablar almağını istədi.

- Çox kitab gətir, ata, mən BİBLİO FİL olmaq istəyirəm.

Bala fil axşama qədər atasını qapıda gözlədi. Axı, təzə kitabları olacaqdı. O, yeni şeylər öyrənəndə çox sevinirdi. Axşam atası qucaqdolusu kitabla gəldi. Bala fil çox həyəcanlı idi. Sevincinin həddi – hüdudu yox idi.

Atasının yanaqlarından öpüb, ona təşəkkür etdi. Balaca fil əvvəlcə kitabları vərəqləyib şəkillərə baxdı. Hansından başlayacağına qərar verə bilmirdi. Gözlərini yumdu. Əlinə gələn ilk kitabı götürüb, oxumağa başladı.

Bir tərəfdən də oxuduğu kitabların siyahısını yazırdı.

Bala fil bir neçə ay boyunca çox həvəslə kitab oxudu. Bitirdiyi hər kitabdan yeni şeylər öyrənirdi. Öyrəndikcə daha çox oxuyurdu. Bir axşam atası əlində balaca qutu ilə evə gəldi.

Qutunu bala filə uzadaraq: -Aç görüm!- dedi.

Bala fili maraq bürüdü.



Görəsən, içində nə var idi?!

Balaca fil cəld qutunu açdı. İçindəkini görəndə elə sevindi ki, az qala ağzı qulaqlarına çatacaqdı. Qutunun içərisində onun aylar əvvəl yaşlı filin yaxasında gördüyü nişan var idi. O, qızıl kimi parıldayırdı.

Bala fil çox xoşbəxt idi. Anası:

-Artıq sən də bir BİBLİOFİLsən, oğlum, - dedi

Atası: - Sən buna layiqsən, - deyərək nişanı bala filin yaxasına taxdı.

Bala fil qürurla nişanı yaxasında gəzdirirdi. Məktəbdəki bütün dostları, müəllimləri ona qibtə edirdilər. Hamı onun kimi BİBLİOFİL* olmağı arzulayırdı.

Kitabı oxuyub qutardın.

*** Bibliofil – çox kitab oxuyan, kitabı sevən, dəyərləndirən şəxs**

**İndi sən də BİBLİOFİL nişanı ala bilərsən!**



# WE CLEAN THE FOREST!

**LALA UMUD**
**UMUD BAGHIRLY**



There were warm autumn days in the forest, when the gentle sun with all its might gives its warmth on the eve of the rainy autumn and snowy winter. The little animals in the forest rejoiced at such days and had fun on the glade. From morning till night they played catch-up, ate and drank in nature, and by the end of day they kindled a fire, because it got chilly in the evenings. Everyone had fun. Only the Lemurchick-cucumber, stripy-striped was unhappy. You remember that the tails of lemurs are long with black-and-white stripes, and therefore-striped. By the way, the lemur was very neat and he did not like that the forest dwellers left behind a lot of trash.




He removed the apple cores, extinguished the smoldering embers and collected the shells from the nuts. But there were too many animals and Lemurchick with his friends hedgehogs could not put things in order.

- I just can not understand why no one takes the trash away? – Lemurchick was indignant once at breakfast, when he and the hedgehogs were drinking tea and eating pancakes with jam.

- You know, Lemchick, - sometimes Kartoshkin shortened his friend`s name, - many do not even pay attention that they litter.

- But it`s bad for the forest. It is preparing for winter, soon the snow will cover the ground, and then turn into water and will cover nourish the roots of the trees and bushes. And if there is trash under the snow, what kind of food is there? No, we need to do something.

Lemurchick was very determined.

- Let`s have a Day of cleanliness,-Yezhkin Suggested.

- What is it like?-asked Kartoshkin.

- We will announce a Day of cleanliness in the forest, and everyone will come out to clean and prepare the frest for winter.

- And when the forest animals work hard cleaning up the garbage, next time they will think before littering,- went on Lemurchick

No sooner said than done!

The very next day the forest dwellers, picking up buckets and brooms, began to clean the forest. They worked until evening: they removed bits of some papers, shards of bottles, cans.

The animals cleaned the glades, hillocks and the lake bank. They did a great job.

And when everything was tidied up Yezkhin and Kartoshkin invited everyone to tea with vanilla small ringshaped crackers. The forest dwellers, satisfied with the work done, drank tea with crackers, talked unhurriedly, looking proudly at the clean paths and glades.

Now, when the cold weather sets in, the snow will cover the clean land. Before going to bed happy Lemurchick said to the hedgehogs:

- I think now everyone in the forest will maintain cleanliness.

And what do you think, dear children?



Я рисую сказку

# Девочка с волшебной коробочкой

Яна Сипаткина

Однажды, гуляя с бабушкой по парку, Аня увидела девочку, и заметила у той в руках маленькую коробочку. Что это у тебя в ней?- поинтересовалась Аня.

— Там внутри — звезда! — шепотом ответила девочка.

— А можно я на нее посмотрю?

По дну коробочки ползал какой то жучок.

— А где же звезда? — удивилась Аня.

— Так вот же она! Разве ты не видишь? — ответила девочка.

— Какая же это звезда, она же не светит! — отмахнулась Аня, и уже хотела бежать обратно к бабушке. Но, девочка тихо проговорила:

— Да разве бывает такое, что звезды светятся днем?

— Нет, не бывает,- согласилась Анечка, - Так значит, ночью твоя звезда светится?

— Конечно! — ответила девочка и улыбнулась.

Внезапно, пробегающий мимо качелей мальчишка, остановился, заглянул в коробочку, рассмеялся и крикнул:

— Какая же это звезда? Это просто букашка! Светлячок! Я таких, каждое лето, у бабушки в деревне ловлю и в банку сажаю!

-— Держи! Это тебе. Мне она больше не нужна! — грустно сказала девочка и протянула Ане коробочку со светлячком.

Недолго думая, Аня взяла коробочку со звездой себе, и побежала к бабушке.

Когда настал вечер, и Анечку уложили спать, она тихонько открыла коробочку, и, о чудо! Звездочка засветилась! И в темной комнате стало сказочно красиво от ее мерцания!

— Так ты и вправду звезда! — сказала Аня с восхищением!

— Я? Да какая же я звезда? Я просто букашка. Отозвалось существо из коробочки.

— Как так?! — воскликнула Аня, - сейчас ведь ночь, а ты так красиво мерцаешь!

— Я — Светлячок. Обычный, трусливый светлячок.

— Почему трусливый? — не поняла Аня.

— Да разве ты не знаешь? Звёзды это — смелые светлячки! Те, которые не побоялись взлететь так высоко, чтобы поселиться на небе! А я побоялся. Вот и летаю я по земле, совсем низко.

— Так значит ты-все равно звезда! Просто, пока еще не осмелившаяся поселиться на небе?- весело сказала Аня. Она была очень рада, ведь теперь она точно знала, что владеет не простой букашкой, а целой звездой!

Наверное, это потому что до тебя, мне никто и никогда об этом не напоминал. Но теперь я соберу всю свою смелость и полечу на небо! Потому что у меня есть та, которая верит в меня и видит во мне не простую, трусливую букашку, а звезду!

— Я буду скучать. Еще раз повторила Аня, и, подойдя к открытому окошку, выпустила светлячка на волю из душной коробки. Светлячок улетел, а Аня вернулась в свою кроватку. Ей не было грустно, от того что, она потеряла свою звезду. Ведь она подарила ее миллионам таких же детей, как и она сама — детям, мечтающим о звездах!

Тем временем, прежде чем подняться высоко в небо, светлячок полетел на поляну, где жили все его друзья — считающие себя трусливыми букашками. Он подлетел к поляне, и, глядя на грустных светлячков, прокричал:

— Друзья мои! Сегодня я покидаю вас, потому что я набрался смелости, и теперь я стану звездой! Я буду светить Вам оттуда, с огромного, синего небосвода! И я буду ждать всех Вас там. Вам просто нужно набраться храбрости и взлететь туда! Туда, где сегодня буду я! С этими словами, храбрый светлячок взлетел так высоко, что оказался на небе.

В этот момент, миллионы детишек, которые еще не улеглись спать, и глядели из своих окон на красивое, звездное небо, заметили, что на этом огромном небосводе ярко-ярко замерцала еще одна, новая звезда! И только девочка с качелей, так никогда и не узнала что принадлежавшая ей букашка, на самом деле была звездой.

Gəlin birgə oxuyaq

# Yeni kitablar bizim rafimizda



**Kitablara etibar et, onlar ən yaxındırlar. Onlar lazım olanda susurlar, danışmaq lazım olanda isə sənə bütün dünyanı göstərirlər.**




Təbiətdən gələn məktubu oxu, əziz dost. Ana təbiəti nə narahat edir, nə ağrıdır? Bu suallara cavab tap. Meşələrin yamyaşıl, çayların və göllərin dupduru, yağışların göz yaşı kimi tərtəmiz, quşların, heyvanların sağlam olmasını istəyirsənsə, təbiəti qoru. Bu kitabı oxuyan gündən təbiətin ən yaxın dostu və xilaskarı ol!




Balaca Dovşan şam ağacının altındakı kölgəlikdə uzanıb şirin-şirin əsnəyirdi. Bu zaman onun yanından gurultu ilə bir yük maşını keçdi. Yük maşınının arxası əşyalarla dolu idi.




Reyhan Yusifqızının yeniyetmələr üçün yazdığı bu əsərdə “Görəsən, indi nə olacaq? Necə olacaq?” sualları ilə daim intizarda qalırsan. “Qapı Arxasında O” Ümid adlı məktəbli oğlanın həyatında baş verən gözlənilməz hadisədən bəhs edir. Bu kitabla müəllif oxucuların nisbətini oğlanların xeyrinə dəyişmək niyyətindədir.




Siz bilən, əlinə həkim çantası keçən Meymun nə edər? Əlbəttə ki, növbəti hoqqalarından birinə başlayar. Amma nə yaxşı bu dəfə onun qarşısını alan tapıldı. Həm də kim? Bütün bunlar barədə öyrənib, üstəlik, sevimli qəhrəmanlarınızı özünüz rəngləmək istəyirsinizsə - irəli!




Müxtəlif qorxuları olan Buku ən çox qaranlıqdan ürkürdü. O, qorxularına qalib gəlmək üçün gecələr oyaq qalan heyvanlardan məsləhət almağa başlayır. Görəsən, Bukuya kim kömək edə biləcək?




Lunaparka gedən yol xeyli uzaq idi. Nəhayət, dostlar çatdılar. Attraksionları görüb çox sevindilər. Par-par parıldayan əyləncəli attraksionlar Alabaşla Balaca Dovşanı həyəcanlandırdı.




“Daş nağılları” seriyası sizi nağıllı bir oyuna çağırır. Bu dəfə oyun yoldaşımız təbiətdə ən asan tapılan daşlardır. Bu nağılları oxuduqdan sonra siz də övladınızla həyətə daş toplamağa çıxın. Yığdığı daşları istifadə edərək istədiyi kimi şəkillər çəksin, nağıllar qoşsun, oyunlar oynasın.




С помощью этой красочной книги дети смогут выучить хадисы, прочитав 100 интересных рассказа. А так же они ознакомятся с правилами поведения в семье и обществе.






ƏZİZ DOSTLAR!
Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!

# *Kitabları xilas etmək istəyən QIZ*

...Onun əhvalatı kitabxanada başladı.

Anna adətən məktəbdən sonra kitabxanaya gedirdi. Kitabxanaçı Monsen xanım kitabları çox sevirdi. O, təxminən əlli yaşında olardı.

Aralarında böyük yaş fərqi olsa da, Monsen və Anna dostlaşmışdılar.

İkisinin də gözü zəif idi, yaxını yaxşı görmürdü.

Anna eynəksiz oxuyanda başını vərəqə o qədər yaxınlaşdırırdı ki, az qala burnu kitabın içinə girirdi...

...Bir gün Anna kitabxanaya gələndə Monsen xanımı kədərli gördü.

-Sizə nə olub? Nə üçün belə kefsizsiniz? – Anna soruşdu.

-Kitablara görə, - Monsen xanım cavab verdi. – Heç kəsin oxumaq istəmədiyi kitablara görə.

-Məgər kitabxanada belə kitablar da var?

-Bəli, belə kitablar kifayət qədərdir.

- Bəs nə üçün onları heç kim oxumaq istəmir?

-Çünki çox adam onların necə qiymətli olduğundan xəbərsizdir,

- Monsen xanım astadan dilləndi...

**Klaus Haqerüp**

***Maraqlıdırmı? Bu yeni kitabın davamını oxumaq istəyirsinizsə, kitabxanamıza gəlin.***






## Kitab limanı




KİTAB TAPIN,
KİTAB PAYLAŞIN,
KİTABSEVƏRLƏRLƏ
TANIŞ OLUN.

Dostlar, bildiyiniz kimi hər il həvəslə oxuduğumuz kitabları nə vaxtsa kitab rəfinə qoymalı oluruq. Hələ dünənə qədər F.Köçərlinin “Balalara hədiyyə” adlı kitabını yanımızdan ayırmadığımız kimi, bu gün sevimli uşaq yazarımız Sevinc Nuruqızının “Dumanlı Şuşa” sı stolustü kitabımıza çevrilib. Bəs sabah?... Maraqlıdır, deyilmi?

Deməli, insanlar hər il yeni-yeni kitablar alırlar, bəs əvvəlki kitabların son taleyini bilirsinizmi? Təəssüf ki, onlar əvvəl aylarla kitab rəflərində qalır, sonra bağ evlərinə yollanılırlar. Ta ki, amerikalı proqramçı Ron Hornbekerin kitabların ömrünü necə uzatmağın yollarını tapıb və bukkrossinq veb-saytı yaradana qədər. Bukkrossinq oxuduğunuz kitabların dövriyyəsi deməkdir. Belə ki, kafe, metrostansiya və s. yerlərdə kitabı “unudursan” və təsadüfi yoldan keçən onu oxumaq üçün özü ilə götürür, oxuduqdan sonra o da haradasa “unudur”. Beləliklə, gözəl bir hadisə, kitab dövriyyəsi başlayır! Siz də rəsmi Bookcrossing veb-saytı vasitəsilə sevimli kitablarınızın yolunu izləyə və sizi maraqlandıran əsərləri axtara bilərsiniz. Bukkrossinqə qatılmaq istəyirsinizsə, bu saytlardan birində qeydiyyatdan keçib unikal kod əldə edin. ***(bookcrossing.com, bookcrossing.ru)*** Onu üz qabığının altına yapışdırın və kitabınızı uğurlu bir dünya səyahətinə çıxarın.

Bukkrossinq gözəl təşəbbüsdür, çünki:

- Bu yolla pulunuza qənaət edərək daha çox oxuya, bilərsiniz;
- yeni kitablar axtarmaq komanda oyunu qədər maraqlıdır;
- kitab dövriyyəsi təşəbbüsü eyni zamanda da meşələri qoruyur.

# *Парус поэзии*




*Некоторые люди обладают даром привлекать внимание окружающих. Нам не нужно проводить с ними много времени, чтобы заинтересоваться ими; то, что мы знаем о них, уже заставляет нас хотеть быть частью их круга общения. Они как сериал или книга, магнит, которые притягивают, хотя мы часто даже не знаем, почему...*

*Такой девочкой является героиня сегодняшней нашей рубрики. Знакомьтесь - Марифли Сямра. Родилась в прекрасном городе Баку в 2009 году. Учится в лицее имени академика Зарифы Алиевой. И как она сама говорит о себе – « Мои успехи в учебе не оставляют желать лучшего». Сямра Нурин увлекается различными хобби. И они настолько различные, что просто штормит от полярности и веселит от ураганности. Эксперты говорят, что все хобби даются нашей героине также, как и учеба. Это и активные занятия спортом - Сямра поставила цель достичь еще больших успехов. А также рисование, прекрасные картины и музыка - игра на скрипке. Причем Сямра выступет с музыкальными номерами на известных площадках, таких как Бакинский центр мугама.*



## *Гянджа*

Гянджа, город великих
побед и славы,
В сердце Кавказа, где ветры истории веют.
Твои улицы — тропы, что ведут к древним временам,
Храня в себе мудрость поколений и доблести дух.

Великие сражения, где ты стоял несгибаемо,
Защищая свою честь и свободу от врагов.
Твои стены свидетельствуют о героических днях,
Когда смелость и решимость были твоими щитами.

Твои площади и мечети — отражение культуры,
Символы веры, традиций и величия народа.
Гянджа, ты — нерушимый крепость духа,
Продолжающая жить в сердцах и памяти твоего народа.

## Спектакль жизни

Все мы актеры на этой сцене жизни,
В каждом шаге, слове свои роли и маски.
На этой сцене жизни, где роли наши внут,

Меняем лица, маски, играя свои роли в спектакле.
В каждом взгляде тайна, в каждом слове – ложь.
На сцене жизни играем, где туман густой.

В каждом шаге - иллюзия,
В каждом слове обман,
Судьба вязнет в паутине, как актер в ролях.

Лжем, как сценарий на пустых сценах,
И в каждой драме бессмысленной теряем смысл.
Роль за ролью, как в трагедии бесконечной,

И мы пленники своих сцен, своих иллюзий.



## *Гордость и скромность:два порога*

На пороге человечьей гордости,
Ступает смешно горбатый народ.
Чрезмерно великой своей важности,
Он теряет путь, заблудившийся в год.

Безмерная гордость, смехом сдобренная,
Как пустынный ветер в ночи свистит.
Вселенная шепчет: "Быть скромным - благоразумней!",
Но слушать не хотят, на своем они весте.

Смеется судьба над зазнавшимися душами,
И пороги человечьи уходят в небытие.
Только тот, кто в скромности своей гордится,
Смог познать истинное счастье в жизни своей.

## *В руках безумия*

В растрате разума, взгляды полны страха,
Тщетны шаги в мраке, эхо смутного.
Люди, марионетки в руках безумия,
Теряют пути, эхо собственных иллюзий.

Бледнеют рассудки, словно свечи ветром,
Смех безумия раздается, звучит коварно.
В этом цирке чувства жалкими куклами,
Безумие поглощает, как вихрь в девятом круге ада.

О, как жалки их поступки в комедии ошибок,
Глупцы танцуют, не осознавая страх.
О, смешны умы, как игрушки детей,
Танцуют в безумии, как марионетки на веревке.

Смех злорадства в безумии гремит, как гроза,
В этом цирке разум становится тенью.
Хор размыт, как эхо медленным,
В безумии звучит смех злорадства.







## *Балаган Реальности*

**Тупиковая мысль, как узкий туннель,**
**В нём таится таинственно-тупообразный ход.**
**Игрок в иллюзии, во мгле своего мира,**
**Не видит, как смех мудрецов катится вперёд.**

**Глупый балаган, где роли заданы заранее,**
**Актёры шагают по древнему сценарию.**
**В куче стереотипов, как в тесном лабиринте,**
**Забыто свободное дыхание воли.**

**Смешно глядеть, как пляшут устаревшие танцы,**
**Ступени стереотипов как лестница в никуда.**
**В высмеиванье светится истина,**
**Стереотипы – комедия, что вечно повторяется.**

**Глупость как маска, туго прижимающая**
**Лица, забытого в плетении обыденности.**
**Все куклы в рядах, невидимые провода,**
**Стереотипы – вот их бессмысленная реальность.**



Böyük adam olmus uşaqlar

# İBN SİNA

Salam, balaca dost!

Bu mənəm - İbn Sina.

Mənim həyat hekayəmi öyrənməyə nə deyirsən? Mənim həyat hekayəmi bilmək istəyərsənmi?

Elə isə - başlayaq! Mən 980 – ci ildə türk şəhəri olan Buxarada dünyaya göz açdım. Əlifbanı öyrənər – öyrənməz böyük həvəslə kitab oxumağa başladım. Buxara şəhəri Böyük İpək yolunun üstündə yerləşir bu səbəbdən burada həmişə kitab ticarəti çox olub. Mən həmişə kitab satılan yerlərə gedər, çoxlu kitab alıb diqqətlə oxuyurdum.

Bir gün atamdan xahiş etdim ki, hökmdardan - əmirdən onun kitabxanasındakı kitabları oxumağım üçün icazə alsın. Əmir bu istəyimi çox yaxşı qarşıladı. Razılıq alınan kimi, mən o kitabxanada olan bütün kitabları oxumağa başladım.

Həyatda ən böyük yolgöstərənim və köməkçim həmişə atam olub. Bu dəfə də o, həvəsimi görüb, mənə müəllim tutdu, başqa elmləri öyrənməyimə imkan yaratdı. Amma atamın məni hazırlamaq üçün üz tutduğu müəllimlər məndən imtina etdilər. Çünki onlar mənim biliyimi yoxladıqlarında bəlli olurdu ki, mən artıq çox şey bilirəm.

Günlərin bir günü ölkəmizin hökmdarı xəstələndi. Mən onu müalicə edə biləcəyimi söylədim. Əvvəlcə, bir çox insan mənim bu sözümə inanmadı.

Amma mən sözümün üstündə durub hökmdarı müalicə edə bildim. Bu uğurum mənim hamıdan çox özümü sevindirdi və təbabətə, həkimliyə marağımı daha da artırdı. Bu hadisədən sora hökmdar öz sarayındakı kitabxananı mənə həvalə etdi.

Qələmə aldığım ilk əsərim tibb elminə aid idi. “Göz həkiminin dəftəri” adlı kitabın tibbə aid ən etibarlı əsər hesab ola bilər. Umumiyyətlə, 29 elm sahəsində 450- dən çox kitab yazmışam.




Mən həm də ağıllı və savadlı tələbələr yetişdirirdim. Sonradan onlar millətimizə çox böyük xidmətlər göstərdilər. Bunlar Nəsrəddin Tusi, Əbdülhəsən Bəhmənyar kimi alimlər idi.

Bu qədər çalışmağıma baxmayaraq, heç var-dövlət sahibi olmaq eşqinə düşmədim. Ağlım və savadım mənim ən böyük dövlətim idi. Saraylar təhlükəli olduğu üçün şəhərbəşəhər gəzir, insanlara xidmət edir, istedadlı tələbələrə kömək edirdim.

Həyatım boyu oxumaqdan, öyrənməkdən doymadım. Daim elmi axtarışlarda oldum, insanlığın xeyrinə nələrsə etməyə çalışdım. Elə ona görə də, cəmi 58 il yaşamağıma və əsrlər keçməsinə baxmayaraq, bu gün də unudulmamışam. Dünyanın harasında mənim – İbn Sinanın adı çəkilsə, demək olar ki, hamı söhbətin kimdən getdiyini o dəqiqə anlayır.

Bax elə buna görə də yaşamağa dəyərdi.



# MƏNİM RƏNG DÜNYAM

*Dostlar, bilirəm ki, əlimdə fırça, boya görən kimi "görəsən İncəhörüm haradadır",deyə özlüyünüzdə pıçıldadınız. Mən bu gün 1 saylı Uşaq Evi Sosial Xidmət müəssisəsinin qonağıyam. Baxın, bunlar da mənim həmin uşaq evindəki dostlarımın mənə hədiyyəsidir.*











Aliyə Eynullayeva





Turac Quliyev







Məmməd Məmmədov





Nuray Sasani

Yaşıl ada

# KAMUFLYAJ

Kamuflaj – sözü özlüyündə gizlənmək mənasını verir. Yəni asanlıqla görünən bir organizm və ya obyektin təbiət və ətraf mühitlə əlaqə zamanı bilərəkdən özünü dəyişdirmə bacarığına sahib ola bilməkdir. Canlı təbiətdə düşməndən gizlənmək və onu təəccübləndirmək üçün bilərəkdən edilən bir metoddur. Bu söz fransız lüğətində (camouflage) sözündən yaranmışdır.

Təbiət bir-birindən çox fərqli xüsusiyyətlərə və həyat tərzlərinə sahib milyardlarla canlıya ev sahibliyi edir. Təbiətdə elə mükəmməl harmoniya, elə həssas tarazlıq var ki, milyonlarla canlı bir-birlərinə bağlı yaşadıqları halda, bu tarazlıq pozulmur və canlılar məhv olmur. Halbuki, ov-ovçu zəncirində bir növün yox olması belə sistemin tamamilə pozulmasına səbəb olur.









Dünyanın hər tərəfində, hər cür iqlimdə yaşayan kəpənəklər çox müdafiəsiz görünmələrinə baxmayaraq, düşmənlərinə qarşı özlərini gizləməkdə ustadırlar. Olduqca qısa müddət yaşayan, yer üzünün bəzəkləri sayılan kəpənəklər, bir-birindən çox fərqli rənglərə sahib mantislər, dənizlərin sakinləri olan balıqlar və daha çox müdafiəsiz görünən bir çox canlı göstərdiyi kamuflyaj qabiliyyəti ilə insanı heyrətə salır.

Mantis böcəkləri yaşadıqları mühitdə özlərini mükəmməl gizlədə bilən heyvanlardandır. Bir-birindən tamamilə fərqli rənglərə sahib olan kamuflyaj qabiliyyətini ən gözəl şəkildə istifadə edir. Çox maraqlı görünüşə sahib səhləb çiçəyi üzərindəki mantis böcəyini ayırd etmək, demək olar ki, qeyri-mümkündür.

Kəpənəyin yarpağa bənzəməsi düşmənlərinin onu görməsinin qarşısını alır. Əlbəttə, bu kiçik heyvan qorunmaq məqsədi ilə öz vücudunu bilərək yarpağa bənzətmir. Hətta yarpağa bənzədiyi üçün qorunduğunun fərqində belə deyil.







Buqələmun elə üstün bir kamuflyaj qabiliyyətinə malikdir ki, bu işi etmək tezliyi ilə insanı heyrətə salır. Digər bir çox sürünənlər də rəng dəyişdirmə qabiliyyətinə sahib olduğu halda, heç biri bunu buqələmun qədər sürətli edə bilmir.

5 sm. boyundakı buqələmun da olduğu mühitə görə rəng dəyişdirə bilir, bir-birinə bağlı olmadan hər tərəfə dönə bilən gözləri ilə ovunu tündləşdirən "melanofor" hüceyrələrini böyük ustalıqla istifadə edə bilir. Məsələn, lazım olan zaman bədənindəki qılıfdan sıyrılaraq yeni parlaq bir dəriyə bürünə bilir və olduqları mühitdəki rəng və şəkillərə heyrətamiz dərəcədə uyğunlaşan bədən quruluşuna sahibdilər.







İncəhörüm səyahətdə



# Sirk – əyləncə və gülüş

Salam dostlar! Bu mənəm-İncəhörüm. Jurnalın növbəti sayında sizlərlə yenidən görüşdüyüm üçün çox şadam. Sizə oxuduğum kitablar, gəzib-gördüyüm maraqlı səyahətlər, görüşlər haqqında danışmaq istəyirəm.

Geridə qoyduğumuz günlərdə mən də sizlər kimi hər birimizin sevimli məkanı –Bakı Dövlət Sirkində oldum. Sirk hər birimizin özünü nağıllar aləmində hiss etdiyi bir sehirli yerdir. Biz burada gah təəcüblənir, gah da gülüb – sevinərək maraqlı anlar yaşayırıq. Gəlin görək bu sevimli məkan nə vaxtdan yaranmış və nə zamandan insanların marağına səbəb olmuşdur?

Sirk bir qrup artist və ya müəssisə tərəfindən akrobatika, kloun, sehrbazlıq, heyvan oyunları kimi müxtəlif səhnələrlə həyata keçirilən sənət növüdür. Sirkin yaranmasının qədim tarixi vardır. Onun kökü antik Romadan başlayır. Müasir sirkin təməlini XVIII əsrin sonunda Londonda istefada olan hərbiçi Filip Astli qoymuşdur. Astli sirk qurmağı uzun müddət planlaşdırsa da, buna imkanı çatmırdı. Bir gün o, almaz qaşlı üzük tapır. Üzüyü satıb sirk nömrələri göstərməyə yararlı olan bir yer (sahə) alır. Bu məkanda öz atı ilə birlikdə müxtəlif nömrələr nümayiş etdirir. Tamaşaya baxanlar isə nömrənin sonunda Astlinə müxtəlif hədiyyələr, pul verirlər. Bir qədər sonra o, insanların bu tamaşalara marağını görüb daha böyük ərazi alır, xüsusi arena düzəldir. Arenanı qırmızı kartonla əhatəyə alır və ətrafına oturacaqlar yerləşdirir. Artıq tamaşaçılar içəri daxil olarkən əvvəlcədən pul ödəməli idilər. İllər keçdikcə Astlinin sirk tamaşaları daha da təkmilləşir. O öz sirkinə ip üstündə bəzi nömrələri göstərə bilən akrobatları cəlb edir, bundan sonra sirk tamaşasında bir meymun, 1816-cı ildə isə iki fil peyda olur. Astlinin vəfatından sonra sirk fəaliyyətini dayandırsa da, XIX əsrin sonunda Avropada 20-dək sirk vardı. Onlar daha çox səyyar tamaşalara üstünlük verirdilər.

Dostlar, Azərbaycanda milli sirk sənətinin tarixi çox qədimdir.



*Bu məşhur rəssamın yaradıcılığında xüsusi bir dövr var idi ki, o, tez-tez səyyar sirk ifaçıları mövzusuna müraciət edirdi. Onu tanıyırsanmı?*





Sirk sözünün mənasını bilirsinizmi?

Hansı ölkələr sirklərdə heyvanların istifadəsinə qadağa edib?

Bakı Dövlət Sirkinin memarları kimdir?

Dünyanın ən böyük stasionar sirki harada yerləşir?

Beynəlxalq Sirk Günü nə zaman qeyd olunur?

“Qələm” ləqəbli məşhur səhnə klounun adını bilirsinizmi?
Bu abidə Belarusiyanın hansı şəhərində qoyulub?

Sirkdə çarxın adı nədir?

Bütün müasir sirk arenaları eyni diametrə malikdir - 13 metr. Nə üçün?

Klounun insanları güldürməsinə nə kömək edir?

Sirk ifaçılarının tez-tez ayaqlarına bağladıqları çubuqların adı nədir?

Rəssamın kloun kostyumu yaradanda məqsədi nə idi?

Sirkdə tamaşa zalını səhnə arxası sahəsindən ayıran pərdənin adı nədir?

Ən böyük ayaqqabılı, 58 razmer geyinən klounun adı nə idi?

Onlar sifətində komik ifadə olan sənətkarlardır. Bunu təmin etmək üçün, rəngli və şişirdilmiş pariklər, müxtəlif üslubda makiyajlar, qeyri-adi iri ayaqqabılar və qəribə kostyumlardan istifadə edilir. Onlar kimdir?

**Sirkdə qarşılaşdığınız qeyri-adi və maraqlı təsuratlarınızı bizimlə paylaşın.**






## Düşün və tap

*Düşünmədən öyrənmək vaxt itirməkdir.*

**Konfutsi**

## Qala bürcləri niyə çox vaxt dairəvi olur?

Dairəvi bürclər daş kürələr, sonralar isə daş kürələrdən daha dağıdıcı olan dəmir kürələr atan topların zərbələrinə daha yaxşı davam gətirir. Qədim dövrlərdə bürclər dördkünc idi. Toplar dördkünc bürcün künclərini deşib zədələyir, qalanı asanlıqla dağıdırdı. Amma zərbələrin təsirini azaldan dairəvi bürcləri uçurmaq elə də asan deyil.

## İldırımdan daha sürətlə hərəkət etmək mümkündür?

Bu gün ən sürətli kosmik raket 1 saatda 60 000 kilometr uçur, ildırım isə cəmi bir saniyədə 50 000 kilometr hərəkət edir! İldırım sürətini keçmək üçün hələ çox çalışmaq lazımdır!

## Parabüzənlərin qanadları niyə xallıdır?

Parabüzənlərin çox xoşagəlməz dadları var. Özünə yem axtaran heyvanların çoxu isə bu həşəratı yemir. Həmin heyvanlar qanadlarının üzərindəki xallar sayəsində parabüzənləri tanıyır... və beləcə onları ovlamırlar.

## Hörümçək niyə tor hörür?

Hörümçək çox nazik tor hörür və tora çoxlu cücü düşür. Hörümçəklərin bəzisi zəhərli də olur. Tora saldığı cücüləri zəhərli iynələri ilə sancıb öldürür. Hörümçək toru həm hörümçəyi, həm də onun balalarını qoruyur, qoyduğu yumurtanı isti saxlayır.

## Ən çox dişi olan canlı hansıdır?

Bu canlı heyvan fikirləşdiyiniz kimi timsah yox, akuladır! Körpəkbalıqları dəstəsinə aid olan akulanın dişləri bizim dişlərimiz kimi bir cərgədə yox, bir-birinin ardınca düzülmüş bir neçə cərgədə yerləşir: bir cərgədəki dişlər qırılanda arxa cərgənin dişləri qırılanda arxa cərgənin dişləri onları əvəz edir. İnsanın uşaq yaşda 20, böyük yaşda isə 32 dişi olur; akulanın isə eyni vaxtda 3000-ə yaxın dişi var!

## Asteriks həqiqətən olub?

"Asteriksin macəraları" nın bir çox personajları kimi Asteriks də, elə Obelisk də uydurma qəhrəmanlardır. Asteriks adlı qall heç vaxt olmayıb. Bu adı mətbəə işində istifadə olunan "asteriks" işarəsinin adından götürüblər, Azərbaycan dilində bu işarəyə "ulduz" deyilir: Beləliklə, Asteriks adının qalların adları ilə heç bir əlaqəsi yoxdur!

## Balıqlar gözləri açıq necə yatırlar?

Balıqlar heç vaxt gözlərini yummurlar, çünki onların göz qapaqları yoxdur. Amma bu onların yatmağına mane olmur! Sadəcə balıqların yuxusu bizimkindən fərqlənir: onların yuxusu dayaz, qısa olur və heç vaxt yuxu görmürlər.

## Planetin hansı bölgəsində qarışqa yoxdur?

Zəhmətsevər qarışqa heç zaman işləməkdən yorulmur. Bu həşərat dünyanın hər yerinə yayılıb. Yalnız soyuq Arktikada qarışqa olmur. Qarışqadan, ot və şəkərli maddələr yeyir, onun ifraz etdiyi şirəyə "qarışqa turşusu" deyirlər. Qarışqanın güclü qoxu duyğusu var.

## Niyə güzgüdə özümüzü görürük?

Divara dəyən top geri sıçradığı kimi, hamar və parlaq səth də bizim əksimizi geri qaytarır! Güzgü bir üzü şəffaf, o biri üzü nazik gümüş qatı ilə örtülmüş şüşədən hazırlanır. Təsvir şüşədən keçir, nazik gümüş örtük onu geri qaytarır. Beləcə, bizim əksimiz güzgüyə düşür, nəticədə biz özümüzü görürük.

## Ən yüksək dağ hansıdır?

Dünyanın ən yüksək dağ zirvəsinin hündürlüyü 8850 metrə çatan Everest dağıdır. O, Fransadakı Monblan dağından 4040 metr hündürdür! Everest Asiyanın mərkəzində yerləşən Himalay dağ silsiləsinin ən yüksək dağıdır. Himalay dağ silsiləsinin isə digər 13 dağı hündürlüyü 8000 metrdən çoxdur.

Neçə-neçə alpinist bu dağlara qalxmağa çalışıb, bəziləri hətta onların zirvələrini fəth edib!

## Dünyada neçə dil var?

Dünyada təxminən 7000 danışıq dili var! Lakin yüzlərlə, hələ bundan daha artıq dil məhv olmaq üzrədir, çünki bu dillərdə danışanların sayı get-gedə azalır. Hər il təxminən 25 dil "ölür", bəzən isə əksinə olur, dillər "dirilir". Misal üçün, əvvəllər yalnız yəhudi dini bayramlarında istifadə olunan ibri dili indi İsrailin əsas danışıq dilinə çevrilib.

## Niyə səhərlər quşların cəh-cəhini eşidirik?

Yaz və yay fəslində hava açılmamış quşlar cikkildəməyə başlayırlar, səhərə yaxın tam sakitlik olduğundan onların cəh-cəhini aydınca eşidirik. Erkək quşlar cikkildəyərək dişilərin diqqətini cəlb etməyə çalışırlar. Çox vaxt dişilər də cəh-cəh vurub oxuyurlar.